# Bir çox müğənni və aşıqların qarmon sənətində izi

1834

Əhsən Rəhmanlı,
Azərbaycan Milli Konservatoriyasının dissertantı
E-mail: ahsanrahmanli@mail.ru

*Kamrabəyim (Kamiləbəyim) Həsən qızı Hüseynova 1900-cü ildə Şuşada dünyaya göz açıb. O, gözəl qarmonçalan və müğənni idi. Piano, tar, qarmon ifaçılığını uşaqlıqdan öyrənmişdi. Gur, məlahətli səsə malik olan xanəndə kimi klassik muğam, təsnif və mahnıları xüsusi bir şövqlə çalıb-oxuyar, xırdalıqları, gəzişmələri, bədii ifaçılıq məharəti, ustalığı, sənətkarlıq qabiliyyəti ilə başqalarından seçilərdi. "Rast", "Çahargah", "Segah", "Heratı", "Simayi-şəms", "Qarabağ şikəstəsi" kimi muğamlar onun oxusunda, oyun havaları isə qarmon ifasında orijinal səslənərdi...*

**Kamrabəyim ötən əsrin** 20-ci illərində Ağdam qadınlar klubunun təşkilində fəallıq göstərib, 1930-cu illərdə bəstəkar Zülfüqar Hacıbəyov onu Bakıya dəvət edib, filarmoniyada, mədəniyyət evlərində, fəhlə klublarında, müxtəlif konsert salonlarında, bir çox rayonlarda çıxışları təşkil olunub. Az müddətdə ifaçılığı ilə bütün respublikada məşhurlaşıb. Ümumiyyətlə, bu sənətkar xüsusilə Şuşada və Ağdamda o dövrdə keçirilən Şərq konsertlərinə, ədəbi-bədii gecələrə, teatr tamaşalarına qatılaraq Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin fəxri fərmanına layiq görülüb.

Qarabağda Kamrabəyimin qarmon ifaçılığının incəliyi və təsirindən həvəslənib bu sənətə gələnlər çox olub (1, səh. 2).

Azərbaycanın Əməkdar artisti Mürşid Həşimlinin xatirələrindən: "1924-cü ilin yayında Zülfüqar Hacıbəyov ailəsi ilə Şuşaya dincəlməyə gəlmişdi. O, Şuşanın səhnə həvəskarlarını ətrafına toplayıb bir tamaşa hazırlamağı məsləhət gördü. Belə qərara alındı ki, "Aşıq Qərib"i oynayaq. Lakin tamaşada oynamaq üçün qız lazım idi. Çox axtarışdan sonra qarmonçalan Kamrabəyimi tapdıq. Onun iştirakı ilə "Aşıq Qərib"i oynadıq (2, səh. 231). 1944-cü ildə Kamrabəyim Xan Şuşinski ilə birlikdə Tiflisdə keçirilən Zaqafqaziya xalqlarının olimpiadasında iştirak edərək Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin fəxri fərmanına layiq görüldü (1, səh. 2).

Şamaxıda dünyaya gəlmiş **Sənəm Səlim qızı** XX əsrin 30–60-cı illərində bütün Şirvanda qarmonçu, xanəndə, aşıq-şair kimi tanınırdı.

Bu el sənətkarı barədə məlumatı Seyfəddin Qəniyevin "Şirvanlı Aşıq Mirzə Bilal" kitabından alırıq. O yazır: "Sənəm xanım haqqında çox eşitmişdim. Bir dəfə soruşanda Bakıda olduğunu dedilər.

Paytaxtda yolumu Sənəm xanımgildən saldım. Ağamuradın dediyinə görə, yaşı 80-i keçmişdi. Amma heç 60 yaş da vermək olmazdı. Onun yaddaşından çox xatirələri qələmə aldım... Sənəm xanım deyirdi: "Atam Səlim kişi kasıb olsa da, musiqi aşiqi idi. O dövrdə Şamaxıda yaşayıb-yaradan sənətkarların hamısı onu tanıyırdı. Gözəl səsim olduğunu bilən atam məni qonşumuz qarmonçu Narınc xanımın yanına şagird qoydu. O zamanlar Narınc xanım öz rəfiqələri Püstəxanım, Zeynəb Abbas qızı, Nisəxanım Abbas qızı ilə Şamaxıda varlıların qız toylarını edərdi. Narınc xanım mənə qarmon öyrətdiyi kimi, səsimi də yoluna qoydu. 1923-cü ildən qız toylarına getməyə başladım.

Aşıq Bilalın sevgilisi Soltan xanımla bir məhəllədə böyümüşdük. Soltan mənim qız toylarına getdiyimi bilib sevindi. Xahişimi nəzərə alıb Aşıq Bilalla tanış etdi. Mən bütün dastanlar kimi, muğamların da bir çoxunu – "Şur", "Rast", "Zabul"u Aşıq Bilaldan öyrəndim. 1930-cu illərdə beş dəfə Aşıq Bilalla toya getdim. Özü də xanəndə kimi. 1937-ci ildə o kişi tutulandan sonra biz şagirdləri yasa batdıq. Mən sənətdən əl çəkdim. Ta müharibə bitənə kimi. 1946-cı ildə yenə qarmonumla qız toylarına getdim. 1950-ci illərdə Kalva kəndindən olan məşhur Əli kişi (zurna, balaban, tütək ifaçısı), Aşıq Şamil, Aşıq Abbas, Aşıq Soltanmuradla bir müddət yoldaşlıq etmişəm. Toylarda haralarda olmamışam ki?" (3, səh. 133–134).

Qeyd etməliyik ki, Sənəm xanım cürə sazda çalır, Şirvan aşıq mühitinin bütün havacatlarını mükəmməl bilir və oxuyurdu.

Aşıq Bilalın (1872–1937) şagirdlərindən biri, Göyçayın Bəydövül kəndində yaşayıb-yaradan **Aşıq Mürsəl** (1905–1947) də qarmon ifaçısı idi. Qarmonu ustalıqla çaldığı üçün çağırıldığı məclislərdə ondan xalq havaları və muğamlarımızın ifasını xahiş edirdilər. Onun qarmonda aşıq havalarını çalması da, öz xanəndəsini muğam hissələri ilə müşayiət etməsi də maraqlı idi. Aşıq Mürsəl xalq oyun havalarımızı da çox yaxşı bilirdi (4, səh. 236).

Ağsu rayonunda yaşamış və fəaliyyət göstərmiş **Aşıq Şamilin** (1937–1984) də məharətli qarmon çalmağı olmuşdur. O, toyların müəyyən anlarında qarmon çalğısı ilə məclislərə rövnəq vermişdir. Xalq mahnılarını oxuyanda qarmonla öz-özünü müşayiət edir, "Tərəkəmə", "On dördü", "Yüz bir", "Kolxozu", "Heyvagülü" və digər oyun havalarını şirin xallarla və xüsusi həvəslə çalırdı (4, səh. 236).

Opera müğənnisi, Əməkdar artist, məşhur sənətkar, yaratdığı obrazlarla tarixdə yaşayan **Cahan Talışinskaya** (1909–1967) da böyük istedad sahibi idi. O, fleyta, fortepiano, tar, qaval və qarmonu bacarıqla ifa edirmiş. Musiqi alətlərindən ən çox qarmonu sevirmiş (5, səh. 70).

Əslən Bakının Balaxanı kəndindən olan **Aida Nuğday qızı Novruzova** (1929–1971) İçərişəhərdə boya-başa çatıb. Qarmon sənətinin ifa qaydalarını Bakının köhnə məhəllələrindən olan, "Sovetski"də yaşayan Mirzağa Məmmədovdan öyrənmişdi. Mirzağa pioner və məktəblilər evinin (hazırda uşaq və gənclərin yaradıcılıq mərkəzi) qarmon dərnəyində və öz evində sənət həvəskarlarına dərs deyirdi. Aida Mirzağa müəllimin ən istedadlı və sevimli tələbələrindən biri olmuşdu.

Allah-taala Aida xanıma boy-buxun, gözəllik, incə zövq və məlahətli səs bəxş etmişdi. O, hədsiz gözəl oxuyurdu. Bakıda, ətraf qəsəbə və əyalətlərdəki qız toylarının sevimli müğənnisi idi. Əvvəldən qarmonçalan-müğənni kimi tanındığı üçün çox yerlərə dəvət edirdilər.

Aida Novruzova 1962–70-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında qarmonçu-müğənni kimi fəaliyyət göstərib (4, səh. 64–65).

**Vaqif Əsədov** 1948-ci ildə Bakıda doğulub. Ana babası Möhsün kişinin Azərbaycanın məşhur xanəndəsi İslam Abdullayevlə möhkəm dostluğu varmış. İ.Abdullayev (1876–1964) tez-tez dostunun qonağı olardı. Vaqif azyaşlı ikən qarmon çalar, rəqs edər və mahnı oxuyardı. Diatonik qarmonda çalğı öyrənmişdi. Ustad xanəndə onlara qonaq gələndə oxumasına dəm də tutardı. Vaqifin istedadı göz önündə idi. İslam Abdullayev xanəndə dostuna məsləhət görür ki, nəvəsinə xromatik qarmon alsın. Möhsün kişi Vaqifə xromatik "Kazan" qarmonu alır. Balaca musiqiçi bu alətdə tədricən yaxşı çalğı öyrənir.

O oxumaqdan da uzaq deyildi, orta ümumtəhsil məktəbinin xalq çalğı alətləri ansamblında çalır, tədbirlərdə, konsertlərdə oxuyurdu. Vaqif 1960-cı illərin birinci yarısında Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsinin uşaq xorunun solisti olmuşdu. Uşaq xorunun televiziya çıxışlarında S.Ələsgərovun "Vətənimdir" əsərini və "Şuşanın dağları" xalq mahnısını oxuyurdu.

1965-ci ildə V.Əsədov Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblına rəqqas kimi işə qəbul olunur. 10 gün sonra həmin ansambl Rusiya paytaxtında keçiriləcək mədəniyyət günlərində çıxış etmək üçün gedərkən Vaqifi də Moskvaya aparırlar.

Artıq 1968-ci ildə Vaqif ansamblın repertuarındakı kompozisiyalarda solist kimi çıxış edir. Məşqlərdə bəzən qarmon çalır, həm də oxuyur. Məşhur baletmeyster Əlibaba Abdullayev (1915–1980) onun hərtərəfli bacarığını görüb quruluş verdiyi rəqslərdə bunu nəzərə alır. O, bəstəkar Cahangir Cahangirovun (1921–1990) musiqisi əsasında qurduğu kompozisiyada Vaqifi qarmonçu-rəqqas kimi səhnəyə çıxarır. Bundan başqa, "Bulaq başında" adlı tərtibatda V.Əsədov müğənni-rəqqas kimi solistlik edir.

V.Əsədov 1970–80-ci illərdə Bakı Musiqiçilər Cəmiyyətində müğənni-qarmonçalan olmuş, 1980–86-cı illərdə görkəmli xanəndə, Xalq artisti Əlibaba Məmmədovun rəhbərlik etdiyi "Hümayun" xalq çalğı alətləri ansamblında çalışmışdır.

Müğənni-qarmonçalan 1991–93-cü illərdə mərhələlərlə İran İslam Respublikasına səfər edərək Təbriz, Tehran və digər şəhərlərdə soydaşlarımızla görüşmüş, onların tədbirlərinə rövnəq verərək ça-lıb-oxumuş və musiqimizi sevdirmişdir.

V.Əsədov 1995-ci ildən 2001-ci ilə qədər Almaniya və Fransada yaşamış, Avropadakı türk kültür dərnəkləri və Azərbaycan cəmiyyətləri ilə əlaqə quraraq onların tədbirlərinin fəal iştirakçısı olmuşdur. 2003-cü ildə Fransanın Lill şəhərində xalq mahnılarımızdan ibarət diski hazırlanmışdır. 2002-ci ildən başlayaraq səkkiz xalq mahnısı, səkkiz bəstəkar əsəri, muğam hissələri oxumaqla xeyli qədim təsnifləri milli radiomuzun fonduna təqdim etmişdir. Onun ifaları disklərdə toplanmışdır.

Müğənni-qarmonçalan, Azərbaycanın televiziya kanallarına və radiolara da dəvət alır. "Space" vasitəsilə onun "Mahur təsnifi" klipi mütəmadi nümayiş etdirilir.

2005-ci ildə Vüqar Tapdığın rejissorluğu ilə "AzTV"nin V.Əsədov haqqında çəkdiyi "Tənhalıqdan sonra" sənədli filmi maraqlı, mənalı və təsirlidir.

O, Əməkdar artist, müğənni Eyyub Yaqubovun musiqi qrupunun üzvü kimi müxtəlif tədbirlərdə və konsertlərdə çıxış edir (5, səh. 338–342).

**Hüseyn Həsənəli oğlu Həsənov** 1950-ci il aprelin 7-də Bakıda anadan olub. O, 1962–65-ci illərdə 12 saylı orta ümumtəhsil məktəbində oxuyub. Bakı Rabitə Texnikumunda təhsil alıb. 1959-cu ildə 12 dilli diatonik qarmonda çalğı öyrənib. "Kazan" markalı xromatik tədris qarmonunda çox şey öyrənib və bu sənət üzrə dəvam edəcəyini müəyyənləşdirib. Əmisi, ustad xanəndə Hacıbaba Hüseynov (1919–1993) onu dinləyib, böyük istedadı olduğunu bildirib və xeyir-dua verib.

Hüseyn 1960-cı illərdə uşaq musiqi məktəbinin qarmon sinfində təhsil alıb, bilik və bacarığı sayəsində tədris pillələrini tez adlayıb. 1962-ci ildə Riqa şəhərində keçirilən Məktəblilərin Ümumdünya Festivalında Azərbaycanı iki məktəbli – Firuz Eyvazov (1949–2000) və Hüseyn Həsənov təmsil edirdi. Tədbirə qarmonçu və müğənni kimi qatılan Hüseyn "Ögey ana" bədii filmindən İsmayılın mahnısını ("Kəndimiz") festival üçün xüsusi hazırlanmış kompozisiya daxilində oxuyaraq alqışlar qazanıb. Latviya mətbuatı onun şəkillərini və haqqında məqalələr dərc edib. Musiqi marağı daha sonra onu Respublika Müəllimlər Evinə gətirib. 1965–66-cı illərdə burada "Arzu" özfəaliyyət xalq çalğı alətləri ansamblında çalışıb. Ansamblın rəhbəri tarzən Baba Salahov (1923–1982) konsertlərdə Hüseynin sololarla çıxışına şərait yaradıb.

Əlibaba Məmmədov 1968-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında "Hümayun" xalq çalğı alətləri ansamblını yaradarkən qarmonçalan Hüseyni dəvət edib. Hüseyn burada 12 il fəaliyyət göstərib. 1978-ci ildə "Azkonsert" yaranarkən "Hümayun" ansamblı da ora keçirilib. Hüseyn 1980–95-ci illərdə həmin Konsert Birliyində solist-qarmonçalan kimi çalışıb. Onun radio fondunda yazdırdığı "Pərvanə" və "Nuranə" rəqsləri sevilərək müəllifinə şöhrət gətirib. 1981–85-ci illərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının vokal sinfində təhsil alıb və tam peşəkar müğənni kimi yetişib. H.Həsənov Azərbaycanın ən məşhur musiqi qruplarında və ansambllarında işləyib. O, müğənni Hüseynağa Hadıyevlə (1946–1994), sonralar özü yaratdığı qrupda qarmonçu-müğənni kimi fəaliyyətdə olub və populyarlıq qazanıb. H.Bakılı (Həsənov) 2000–2004-cü illərdə, Xalq artisti Ağadadaş Ağayevin instrumental qrupunun tərkibində məharətini göstərib.

Azərbaycanın kino yaradıcıları da onun xidmətlərindən bəhrələnib. Çəkilmiş filmlərə yazılan musiqilərin səsləndirilməsində həm müğənni, həm də musiqiçi kimi köməyini əsirgəməyib; misal üçün, "Bağlı qapı arxasında" filminə Vasif Adıgözəlovun (1935–2006) yazdığı musiqilərin ifası göstərilə bilər. Adıçəkilən filmdə Hüseyn həm mahnıları oxuyub, həm də ayrı-ayrı melodiyaları qarmonda ifa edib. Burada həmçinin ağızla çalınan qarmondan da istifadə olunub. "Bəxt üzüyü"nə Eldar Mansurovun, "Təngə gətirdi" filminə Cavanşir Quliyevin yazdıqları melodiyaların bir neçəsini qarmonda H.Bakılı çalıb.

O, 2005-ci ildən peşəkar müğənnilik fəaliyyətinə başlayıb, səsini disklərə yazdıraraq radiolara təqdim edib. H.Bakılı Azərbaycanda fəaliyyətdə olan bütün telekanalların musiqi verilişlərinə müğənni kimi dəvət alır (4, səh. 381–388).

**Nəhməd Əhməd oğlu Hüseynov** 1962-ci il sentyabrın 24-də Bakının Əmircan qəsəbəsində anadan olub. 1973–77-ci illərdə Suraxanı mədəniyyət sarayının qarmon kursunda oxuyaraq Əyyub Babayev, Vahid Axundlu, Kamil Cəlilov (məşhur qaboyçalan) və Zemfira Hüseynovadan ifaçılıq qaydaları və sirlərini öyrənib. Həmin mədəniyyət ocağında məşhur sənət adamları, bu sırada o zamanlar əməkdar incəsənət xadimləri, tanınan bəstəkarlar Hökumə Nəcəfova (1915–2002) musiqi savadı və solfeciodan, Ramiz Mustafayev (1926–2008) xor sənətindən dərs deyirdilər. R.Mustafayev burada yaradılan uşaq xoruna da rəhbərlik edirdi. Nəhməd xorun fəal üzvü və solisti idi. Bu istedadlı oğlan sarayın uşaqlardan ibarət xalq çalğı alətləri ansamblında da çalışırdı.

N.Hüseynov 1978–81-ci illərdə Bakı Mədəni-Maarif Texnikumunda özfəaliyyət xor dirijoru ixtisası üzrə təhsil alıb. Burada ansamblda çalıb və bütün tədbirlərdə, konsertlərdə müğənni kimi çıxış edib.

N.Hüseynov 1983–85-ci illərdə 30 saylı uşaq musiqi məktəbində, sonralar müxtəlif yerlərdə qarmon kursları və dərnəklərində dərs deyib. 1995-ci ildən 2012-ci ilə qədər Milli Konservatoriya tərkibində Musiqi Kollecinin qarmon sinfində tədrislə məşğul olub. Bütün muğamları mükəmməl çalır və oxuyur. 2000-ci ildə onun qarmon ifasında əksər muğamlar, xalq oyun havaları ayrı-ayrı disklərə yazılaraq yalnız vətənimizdə deyil, əksər ölkələrdə yayılıb və milli radionun fonduna təhvil verilib. Bu ifalar efirdə səsləndirilir.

N.Hüseynov 1996-cı ildən Suraxanı NQÇİ-nin mədəniyyət sarayında tarzən Elxan Müzəffərovun rəhbəri olduğu "Vətən" xalq çalğı alətləri ansamblının solist qarmonçu-müğənnisi, 2008-ci ildən bədii rəhbəri olub.

Sənətkar "Rast", "Zabul-Segah" muğamlarını oxuyub qarmonda özünü müşayiət edərək internet səhifələrinə yerləşdirib. İfaçının 2011-ci ildə qarmon ifasında muğamlar və oyun havaları yazılan audio kaset və kompakt diskləri çıxıb, ölkəmizdə və onun hüdudlarından kənarda yayılıb. N.Hüseynov 2012-ci ildən Binə qəsəbəsindəki 24 saylı uşaq musiqi məktəbinin qarmon sinfinin müəllimi, şagirdlərdən ibarət ansamblın rəhbəridir. O, qarmoçu-müğənni kimi fəaliyyətini davam etdirməkdədir (4, səh. 575–580).

Qeyd etməliyik ki, Xalq artistləri Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Nisə Qasımova, əməkdar artistlər Almaz Orucova, Elza Seyidcahan, Aşıq Vüqar, Almaz Saraylı və Ayaz Qasımov qarmon sinfini bitirmişlər. Ustad xanəndə Səxavət Məmmədov (1953–1991), "İrs" folklor ansamblının solisti Adil Vəliyev (hazırda Hollandiyada yaşayır), Vidadi Bərdəli (1962–2014), Əməkdar artistlər Baloğlan Əşrəfov, Cavanşir Məmmədov, Aygün Bəylər, Lalə Dadaşova, Fatimə Rzaquluyeva və Aşıq Zülfiyyə müğənniliyə qarmon sənətindən gəlmişlər. Musiqi tariximizə diqqətlə baxsaq, yalnız müğənni və aşıqların deyil, həmçinin digər musiqi alətlərimizin mahir ifaçıları kimi yetişən neçə-neçə sənətkarın əvvəllər qarmon çaldıqlarını görə bilərik. Xalq artisti, prezident təqaüdçüsü, mahir qaboy ifaçısı Kamil Cəlilov balaban, nağara və qarmon ifaçısı olmuşdur. O, uzun illər, həmçinin son dövrlərdə də qarmon sinfində dərs demişdir (4, səh. 336).

Qarmon xalqın sevimli musiqi aləti olduğu üçün uşaqlıq və gənclik illərində onda çalmaq istəyənlər kifayət qədər çox olur. Həm də əksər valideynlər övladlarının bu alətdə ifasını arzu etdikləri üçün uşaqları qarmon sinfinə qoyurlar. Araşdırmalar zamanı yalnız sadə adamların deyil, respublikamızın adlı-sanlı şəxslərindən, alimlərindən neçəsinin ilk əvvəllər qarmon ifaçısı olduğu aşkarlanmışdır. Gələcək məqalələrdə bu məsələləri işıqlandırmaq üçün kifayət qədər məlumat vardır.

**Ədəbiyyat**


1. "Şuşa" qəzeti. Bakı – 2007.
2. F.Şuşinski. "Azərbaycan xalq musiqiçiləri". "Yazıçı". Bakı – 1985.
3. S.Qəniyev. "Şirvanlı Aşıq Mirzə Bilal". "Nurlan". Bakı – 2003.
4. Ə.Rəhmanlı. "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi" (dərs vəsaiti). "MBM". Bakı – 2014.



**Резюме**

В статье находит свое отражение умение играть на гармони ашугов, певцов и других деятелей искусства, приводятся факты об их врожденном исполнительском таланте.

**Ключевые слова:** певцы, ашуги, гармонь.



**Summary**

The article reflccts achuqs art, ecrecially the singers able to play the qarmon. On thesubjet of their natural talent and creative work in the field, fells the important work done.

**Key words:** singers, ashuqs, qarmon.